# Abşeronda quruculuq estafeti davam edir

## Kənd və qəsəbə bələdiyyələri bu xeyirxah işə öz töhfəsini verir

***❐ Paytaxt Bakını üzük kimi dövrəyə alan Abşeron rayonunun kənd və qəsəbələrində, rayonun inzibati mərkəzi Xırdalanda son illər tikinti-quruculuq, abadlıq işləri böyük vüsətlə və şövqlə görülüb. Sevindirici haldır ki, bu quruculuq estafeti bu gün də əvvəlki əzmlə və bir qədər də geniş miqyasda davam edir.***

Abşeron son illər ərzində heyrətamiz sürətlə modernləşən, abadlaşan Bakının fonunda "itib-batmır". Görünən budur ki, Abşeron son illər xeyli böyüyərək inkişaf edib, abadlaşaraq gözəlləşib. Əlbəttə, abşeronlular nəhəng meqapolislə rəqabət aparmaq fikrindən uzaqdırlar. Bu, heç mümkün də deyil, sadəcə miqyas çox fərqlidir. Lakin, Xırdalan şəhəri, Abşeronun kənd və qəsəbələri yaxın-uzaq ölkələrdən təşrif buyuran qonaq-qara qarşısında paytaxt üçün heç vaxt utanc yeri olmayıb, əksinə, paytaxtın şan-şöhrətinə əlavə şöhrət qatıb. Axı, abşeronlular bu əsrarəngiz torpağın koloritini, florasını, memarlıq ənənələrini qoruyub saxlaya və inkişaf etdirə bilirlər.

Hörmətli oxucu, "Xalq qəzeti"nin bölgə müxbiri olaraq çalışdığım 15 ilə yaxın bir müddət ərzində Abşeronun sosial-iqtisadi uğurları, rayonun sadə, işgüzar insanları barədə dəfələrlə yazmışam. Bu dəfə Abşeronun kənd və qəsəbə bələdiyyələrinin fəaliyyəti barədə görüb müşahidə etdiklərimi qələmə almaq istəyirəm.

### Xırdalan

Yolumu birinci olaraq rayon mərkəzindən –Xırdalan qəsəbəsindən saldım. Yadımdadır, bir dəfə Abşeron Rayon İcra Hakimiyyətinin bir məsul işçisi dedi ki, Xırdalan şəhəri Abşeron rayonunun təkcə inzibati mərkəzi deyil, həm də rayonda aparılan geniş tikinti-quruculuq, abadlıq işlərinin lokomotividir.

Sözün düzü, bu fikir bir qədər qeyri-adi səslənsə də, burada müəyyən bir həqiqət var. Belə ki, rayon üzrə əksər uğurlu layihələr, maraqlı, real təşəbbüslər məhz buradan start götürür və tezliklə bütün rayonda öz ardıcılllarını taparaq genişlənir.

Konkret misal çəkə bilərəm. "Bələdiyyələrin Avtomatlaşdırılmış İnformasiya Sistemi"nə Xırdalan qəsəbə bələdiyyəsi birincilər sırasında qoşulub. Bunun işə həqiqətən faydası olub. Belə ki, avtomatlaşdırılmış informasiya sisteminin yaradılması bələdiyyə büdcəsinə daxilolmaların artmasına səbəb olur. Hazırda həmin sistemə yerli vergi ödəyicilərinin daxil edilməsi aparılır və bu iş yaxın aylarda başa çatdırılacaq.

Xırdalanda ən çox diqqətimi cəlb edən son vaxtlar şəhərin daxili yollarının asfaltlaşdırılması işlərinin sürətlənməsidir. Bu sahəyə son aylar xeyli vəsait xərclənib və bu iş davamlı şəkildə görülür. Sakinlərin yollardan giley-güzarları azalıb, razılıq edənlərin isə sayı artıb.

Bu gün Xırdalanın yolları təmiz və yaraşıqlıdır. Şəhər sakinləri çalışırlar ki, buradakı yaşıllıqları daha da artırsınlar. Xırdalan bələdiyyəsinin sədri Eldar Əhmədov dedi ki, bələdiyyə üzvlərinin əsas məqsədlərindən biri də sakinlərin abadlıq-quruculuq işlərinə mümkün qədər çox, daha yaxından cəlb edilməsidir. İnsanlar hiss etməlidirlər ki, onlar bu doğma şəhəri, bu tanış küçələri birgə səylə daha gözəl və yaraşıqlı etməyə qadirdirlər. Axı, gözəllik və səliqə-sahmanın alternativi yoxdur.

Demək lazımdır ki, Xırdalan bələdiyyəsi sakinləri bu istiqamətdə səfərbər edə bilir. Burada tez-tez iməciliklər, ağacəkmə kampaniyaları təşkil olunur. E.Əhmədov məlumat verdi ki, bələdiyyə üzvləri hər il Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Novruz bayramı günlərində Xırdalandakı şəhid ailələrinə bayram sovqatları çatdırırlar. Məsələn, bu il Novruz bayramı ərəfəsində 105 ailəyə maddi yardım edilib. Ötən il olduğu kimi, bu il də aztəminatlı ailələrin qaz, su və elektrik enerji borclarının ödənilməsinə kömək olunub.

### Masazır

Xırdalandan sonra yolumu xalqımızın böyük qəzəlxan şairi Əliağa Vahidin doğulub boya-başa çatdığı kəndə – Masazıra saldım. Burada da məni kənd bələdiyyəsinin sədri Siyənfər Əliyev qarşıladı. O, görülən işlərdən ürəkdolusu danışdı. Hiss etdim ki, ortada zəhmət, iş olanda, deməyə söz də olur.

**S.Əliyevin özünü dinləyək:**

– Abşeron rayonunda son illər ən sürətlə böyüyən kəndlərdən biri, bəlkə də birincisi Masazırdır. 2016-cı ildə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, çox hörmətli Mehriban xanım Əliyeva Masazır qəsəbəsində Masazır qəsəbə 4 saylı orta məktəbin aşılışında iştirak edib. Həmin il dekabrın 26-da isə valideyn himayəsindən məhrum, uzaq evlərinin məzunu olan kimsəsiz gənclər üçün tikilmiş 120 mənzillik binanın açılışında iştirak edib. Bütün bunlar əhalidə ölkə rəhbərliyinə, dövlətimizə qarşı dərin razılıq, məmnunluq hisslərini daha da gücləndirir.

Kənddə təmizlik, abadlıq işlərinə xüsusi fikir veririk. Bu ilin əvvəlindən kəndin Ə.Vahid, "Azadlıq", "İstiqlaliyyət" küçələrinə və Yeni Bakı yaşayış massivinin ətrafına 500 ədəd dekorativ ağac, eləcə də 120 Xan çinarı, 150 Eldar şamı, çox sayda akasiya və digər ağaclar əkilib. "İstiqlaliyyət" küçəsi boyunca 3400 dekorativ kol əkilib.

Masazır kəndinin mərkəzi küçəsi olan Ə.Vahid küçəsi boyunca 85 işıq dirəyi basdırılıb. Həmin dirəklərə plafonlar quraşdırılıb, eyni zamanda, kabel çəkilib.

Heydər Əliyev, Zərifə Əliyeva, Həzi Aslanov, Rafiq Dünyamalıyev, Məmməd Araz, Xurşudbanu Natəvan, Mehdi Hüseyn, Üzeyir Hacıbəyov, Mirzə İbrahimov, Cəfər Cabbarlı, Rəşad Hüseynov, Məhəmməd Hadi, Babək küçələrinə çınqıl tökülərək yayılıb.

"Yeni Bakı" yaşayış massivinə gedən yola 1500 kvadratmetr asfalt örtüyü döşənib, "İstiqlaliyyət" küçəsinə iş adamları tərəfindən karbonat tökülərək yayılıb.

Ə.Vahid küçəsi boyunca 6 kilometr məsafədə yolun hər iki tərəfində bardürlər rənglənib və piyada keçidi üçün nəzərdə tutulmuş xətlər çəkilib. R.Dünyamalıyev küçəsindən H.Aslanov küçəsinə qədər olan 3 kilometr məsafəyə 75 diametrlik boru ilə su xətti çəkilib.

### Ceyranbatan

Ceyranbatan qəsəbəsi də rayondakı abadlıq-quruculuq estafetində ön sıralarda gedir.

Burada mənə dedilər ki, son vaxtlar Ceyranbatanda Bakı-Sumqayıt yolunun hər iki istiqamətində qazon örtükləri əkilib, ardıcıl suvarma təşkil edilib. Qurumuş ağaclar yeniləri ilə əvəz edilib. 1800 ağac ağardılıb.

Qəsəbədə daxili yollarda bərpa-təmir işləri aparılıb. Ərazinin təmiz saxlanması sahəsində də nəzərəçarpan işlər görülüb. Qəsəbədəki Təbriz küçəsində qəsəbə sakinləri və ağsaqqalların təşəbbüsü ilə mərasim evinin ətrafı abadlaşdırılıb.

Parkın ərazisində qəsəbə icra nümayəndəliyi, qəsəbə bələdiyyəsi və MİS-in daxili imkanları hesabına məhəllədə kölgəliklər və oturacaqlar quraşdırılıb.

"Şəhidlər xatirəsi" abidəsində 170 kvadratmetr qazon, 210 metr bardür, 60 metr mühafizə divarı, 500 poqonometr aqlay, 120 ədəd bəzək kolları, 2 ədəd palma, 4 ədəd şam ağacı əkilib.

Qəsəbədə qəbiristanlıq yolu istiqamətində geniş təmizləmə işləri görülüb. Abadlıq-quruculuq işlərinə yerli sakinlər də həvəslə qoşulublar. Burada tez-tez iməciliklər təşkil olunur. Kimin nəyə gücü çatırsa, bu xeyirxah işə öz töhfəsini verir.

Daxili imkanlar və sahibkarların köməyi ilə H.Əliyev küçəsində 850 kvatratmetrdən çox ərazi asfaltlanıb. Qəsəbədəki hər iki uşaq bağçası və körpələr evi təmir edilib.

### Saray

**Saray qəsəbəsinin sədri Natiq Tahirov burada görülən işlər barədə məlumat verərkən bunları dedi:**

– Sarayda bələdiyyə xətti ilə görülən işlər çoxdur. Son dövrdə görülən işlər barədə isə qısaca bunları demək istərdim. Qəsəbənin mərkəzində yerləşən "Şəhidlər" kompleksində görkəmli dövlət xadimi Vəli Axundovun barelyefi yerləşən parkda və onunla üzbəüz parkda geniş yenidənqurma işləri görülüb. Kompleks və parklarda bəzək ağacları əkilib.

Qəsəbənin mərkəzi küçələrindən biri olan V.Axundov küçəsinin başlanğıcından yeni salınmış qəbiristanlığa gedən məsafədə olan yol asfaltlanıb.



Saray qəsəbəsində yaşıllıqların salınmasına böyük önəm verilir. 2016-cı ildə Heydər Əliyev və M.Rəsulzadə küçələrində 800 ədəd Eldar şamı, 300 ədəddən çox dekorativ kol əkilib.

Ötən il qəsəbədəki əsas yollara 800 kvadratmetr asfalt örtüyü çəkilib.

Bələdiyyə sədri sonra dedi ki, hər il Novruz və başqa bayramlar münasibətilə şəhid, tənha, aztəminatlı, kimsəsiz ailələrə ərzaq yardımları paylanılır.

Bu ilin əvvəlində M.Rəsulzadə küçəsində 810 kvadratmetr qazon əkilib, divarlara suvaq çəkilib. Saray qəsəbəsində köhnə kəndə gedən yola və qəbiristanlıq ətrafındakı yollara 3360 kubmetr karbanat qatı tökülərək yayılıb.

Şəhidlər xiyabanında təmir-tikinti işləri yekunlaşıb. Saraydakı körpələr evi-uşaq bağçasının dam örtüyü dəyişdirilib.

### Mehdiabad

Mehdiabad hazırda Abşeron rayonunun ən böyük kəndlərindən biridir. Ötən il qəsəbə parkında abadlıq işləri aparılıb. Buradakı "Şəhidlər" kompleksi abidəsi sökülərək yenidən qurulub. Parkda 180 kvadratmetr hasar çəkilib. Gəzinti səkiləri düzülüb. Bura yeni su xətti çəkilib. Yol kənarlarında "aylandra" adlanan 250 dekorativ gül kolu əkilib.








2016-cı ildə aztəminatlı ailələrin, kimsəsizlər və tənha ahılların problemlərinə həssaslıqla yanaşılıb, daxili imkanlar hesabına 200 ailəyə maddi kömək göstərilib.

Bu il ötən il olduğu kimi, ərazidə ağacəkmə kampaniyası uğurla həyata keçirilib. Məhəllədaxili, mərkəzi magistral yolların kənarlarında 400 ədəd Xan çinarı, sərv, akasiya ağacları əkilərək qulluq edilib.

2017-ci ilin əvvəlindən 20 Yanvar küçəsi boyunca 300 metr piyada səkisi qoyulub, daş döşənib. Hazırda qəsəbənin Ə.Cavad küçəsində və yeni salınmış massivdə yollar təmir olunur. S.Abbasov küçəsində yeni kanalizasiya xətti çəkilir.

Mehdiabad-Novxanı və Mehdiabad-Digah istiqamətində yollara yeni asfalt vurulur və piyada səkiləri quraşdırılır. Mehdiabad-Novxanı yolunda 500 ədəd Xan çinarı, 600 ədəd gül kolu əkilib.

Qəsəbə sakinlərinin hazırda işıq, içməli su, təbii qaz sarıdan heç bir çətinlikləri yoxdur.

### Novxanı

Xəzərin sahillində yerləşən Novxanı iqliminə, havasına, bütövlükdə, təbii şəraitinə görə rayonun ən gözəl yaşayış məntəqələrindən biri hesab olunur. Qəsəbə bələdiyyəsi, sakinlər buranın gözəlliyini daha da artırmaq üçün xeyli iş görüblər.

İlk baxışdan nəzərə çarpan işlərdən biri də yaşıllaşdırma işləridir. Abşeron Rayon İcra Hakimiyyəti tərəfindən təşkil olunmuş ağacəkmə iməciliyində Novxanı-Binəqədi yolunun sağ hissəsində 2000 ədəd çinar ağacı, 700 ədəd bəzək kolu əkilib.

Kəndin aşağı baş yaşayış massivi İlqar Abdullayev küçəsində qrunt sularının axıdılması üçün Novxanı bələdiyyəsi tərəfindən 200 metr uzunluğunda, 15 santimetr diametrdə kanalizasiya xətti çəkilib.

Novxanı bələdiyyəsinin sədri Şahin Tağıyev məlumat verdi ki, Heydər Əliyev və İ.Abdullayev küçələrində küçə işıqları təmir edilib və Heydər Əliyev küçəsində sıradan çıxmış 150 metr kabel yenisi ilə əvəz olunub.

Novxanı bələdiyyəsi tərəfindən "Novxanı bağlar massivi"nə 42 adda 200 ədəd lövhələrə yazılmış küçə adları küçələrə vurulub. H.Əliyev, İ.Abdullayev və S.Orucov küçələrində səkkiz kilometr uzunluğunda səki daşları rənglənib. Novxanı kəndarası yolunun 2,5 km hissəsində asfalt yol cari təmir edilmişdir.

Novxanı bələdiyyəsinə məxsus yataqxananın qrunt sularının axıdılması üçün 400 metr uzunluğunda, 25 santimetr diametrində kanalizasiya sistemi yenidən çəkilib.

"Novxanı yeni yaşayış massivi"ndə yerləşən Həsən bəy Zərdabi və Şah İsmayıl Xətai küçələrinin xeyriyyəçilər və əhali tərəfindən 16000 kvadratmetr hissəsinə asfalt vurulub.

### Aşağı Güzdək

Son vaxtlar bu qəsəbədə də görülən abadlıq işləri əhalidə razılıq doğurur. Əhalinin enerji təminatı sahəsinə xüsusi diqqət yetirilib. Aşağı Güzdək qəsəbəsində tender təşkilatı tərəfindən "sip" kabelləşmə işi aparılır.

Bununla əlaqədar metal dirəklər basdırılıb və 4 ədəd 250 KVA-lıq və 3 ədəd 400 KVA -lıq transformator quraşdırılıb.

Ceyranbatandan gələn yüksək gərginlikli elektrik xəttinin 8 dirəyi, 18 dayaq və 320 metr köhnə məftil dəyişdirilib.

Qəsəbənin məcburi köçkünlər məskunlaşan yaşayış massivində yeni elektrik xətlərinin çəkilməsi üçün elektrik dirəkləri gətirilib və "sip" kabelləşmə işi aparılıb. Qeyd olunan əraziyə 15 ədəd müxtəlif gücə malik transformator quraşdırılıb.

Su təminatı sahəsində işlər pis getməyib. Belə ki, əhalinin içməli su ilə təminatını yaxşılaşdırmaq üçün 1000 metr uzunluğunda 16 santimetr diametrli polietilen borular quraşdırılmışdır. Nasosxanada köhnə nasos yenisi ilə əvəz olunub. Qəsəbədə texniki su xətti üçün yeni nasosxana tikilib.

Şollar su anbarı təmizlənib və yenidən təmir olunub. Müntəzəm olaraq əhaliyə içməli su hər gün saat intervalı ilə verilir.

Aşağı Güzdək qəsəbəsində şəhidlərin xatirəsinə ithaf olaraq guşənin tikintisi başa çatdırılıb. Qəsəbədəki məscid əsaslı təmir olunub.

Qəsəbədə müxtəlif növ ağac və bəzək kolları əkilib. Son bir il ərzində qəsəbədə 11 ədəd zibilxana tikilib, ərazi məişət tullantılarından təmizlənib.

### Digah

Qəsəbənin mərkəzində H.Rəhmanov küçəsi 3 kilometr uzunluqda, 7-8 metr enində asfaltlanıb. 2500 metr uzunluqda bardür düzülüb.

Mərkəzi küçə boyu hasarlar ağardılıb, yollar rənglənib.

Qəsəbədaxili küçələr – M.F.Axundov, H.Aslanov, Ə.Xaqani, S.İ.Xətai, A.Bakıxanov, H.Rəhmanov, Koroğlu, H.Z.Tağıyev, Ə.Vahid küçələrinə 990 kub çınqıl tökülüb.

H.Rəhmanov küçəsi boyunca 150 ədəd çinar, 80 şam ağacı əkilib.

Uzun müddət istifadəsiz qalmış kənd orta məktəbinin idman zalı təmir olunaraq şagirdlərin istifadəsinə verilib.

Qəsəbənin təmizliyi daim diqqət mərkəzindədir. Qəsəbə bələdiyyəsi icra nümayəndəliyi ilə birlikdə, demək olar ki, hər həftə iməcilik keçirir.

Son illər qəsəbə sürətlə böyüyür. Yeni yaşayış massivləri salınır. Qəsəbə son illər sürətlə böyüdüyü üçün bəzi küçələrdə sakinlər elektrik enerjisinin zəif olduğundan şikayətlənirlər. Bu problemi həll etmək üçün qəsəbədə "Azərişıq" ASC tərəfindən 400 kilovoltluq elektrik transformatoru qoyulub. İşıq dayaqları yeniləri ilə əvəz olunub.

Digah bələdiyyəsinin maliyyə məsələləri də qənaətbəxşdir. Bələdiyyə büdcəsi əsasən yerli bələdiyyə vergiləri ilə maliyyələşdirilir. Digahda bildirdilər ki, son vaxtlar vergitoplama sahəsində xeyli irəliləyiş var.

### Qobu

Abşeron rayonun digər əksər kənd və qəsəbələrində olduğu kimi, Qobu kəndində də yolların təmirinə və abadlaşmasına böyük qayğı göstərilib. Qobu bələdiyyəsinin sədri Xanağa Əlihəsənov dedi ki, bu il yeni məhəllələrdəki ara yollara onlarca maşın karbonat tökülərək yaydırılıb. Qəsəbədəki 1 saylı orta məktəbin yanından suların axıdılması üçün A.Həsənbalayev küçəsindəki sıradan çıxmış yola 350 kvadratmetr çınqıl tökülərək yaydırılıb. Səməd Vurğun küçəsinə 800 metr məsafədə asfalt döşənib.

Qəsəbənin Qobu-Güzdək yolu, Qobu-Hökməli yolları istiqamətində yollar təmizlənib, ot və qanqallar biçilərək məhv edilib.

Qobuda yaşıllaşdırma işlərinə də qayğı göstərilib. Belə ki, 1 saylı orta məktəbin, "Qobu sənətkarlıq evi"nin həyətində, qəsəbənin iki tağlı girişində müxtəlif növdə yüzlərlə ağac əkilib.

Qəsəbədəki 25 imkansız ailəyə və şəhid ailələrinə bayram sovqatları verilib.

Öyrəndim ki, buradakı abadlıq-quruculuq işlərinə kəndin yeniyetmə və gəncləri böyük həvəslə qoşulurlar. Onlar başa düşürlər ki, hərə öz evinin qarşısını, küçəsini abad saxlasa, bütövlükdə, kənd daha səliqəli və yaraşıqlı olar.

### Məmmədli

Deyirlər ki, abad kənd öz yollarından bəlli olur. Məmmədli kəndində son illər yolların yaxşılaşmasına çox səy göstərirlər. Dövlət səviyyəsində görülən işlərlə bərabər, kənd bələdiyyəsi də bu sahədə əlindən gələni edir. Təkcə bir faktı deyim: bu ilin əvvəlindən kənddə ümumi uzunluğu 2700 metr olan üç küçəyə 1000 kubmetr karbonat yayılıb.

Məmmədlidə yaşıllaşdırma işlərinə də biganə qalmırlar. Bu ilin əvvəlindən ərazidə 1200 ədəd Xan çinarı əkilib. Təzə ağaclar səliqə ilə suvarılıb, hər ağacın yanına dirəklər basdırılıb, əkilmiş şitillər həmin dirəklərə bağlanıb.

Böyük Vətən müharibəsində həlak olan Məmmədli kənd sakinlərinin şərəfinə salınmış parkın və abidənin təmiri davam edir. Kənddə 20 Yanvar şəhidlərinin xatirəsini əbədiləşdirmək üçün yeni abidə kompleksinin tikintisinə başlanılıb.

Məmmədlidə müntəzəm olaraq şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və imkansız ailələrə bayram sovqatları çatdırılır.

Məmmədli kəndindəki Ə.Əliyev küçəsindəki zirzəmiyə yığılıb qalmış qrunt suları təmizlənib. Hazırda kənd ərazisində şəhid ailəsi üçün inşa edilən evdə son tamamlama işləri görülür.

Sonda bildirək ki, Abşeron rayonunun Görədil, Fatmayi, Pirəkəşkül kəndlərində də tikinti-quruculuq, abadlıq işləri görülür.

### Son söz əvəzi...

Bəli, Abşeronun kənd və qəsəbələrini gəzib hər şeyi öz gözlərimlə gördükdən sonra tam səmimiyyətlə deyə bilərəm ki, rayonda aparılan geniş tikinti-quruculuq, abadlıq işlərinə bələdiyyələr də öz töhfəsini verir. Rayonun bələdiyyə qurumlarında təmsil olunanlar əhalinin yaxından tanıdıqları, seçdikləri və güvəndikləri insanlardır. Yaxşı ki, onların çoxu bu etimadı öz xeyirxah və səriştəli işləri, əməlləri ilə doğrulda bilir.

Əlbəttə, rayonda həllini gözləyən məsələlər də kifayət qədər çoxdur, lakin onların hər birinin öhdəsindən uğurla gəlmək üçün həm rayon icra hakimiyyəti, onun nümayəndəlikləri, həm də yerli bələdiyyələr səviyyəsində gərgin səy göstərilir. Deməli, tikinti-quruculuq marafonu uğurla davam edir. Necə deyərlər, estafet etibarlı əllərdədir!

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova bələdiyyələrin gördüyü işlərdən söz düşəndə razılıq hissilə qeyd etdi ki, rayondakı əksər bələdiyyə kollektivləri abadlıq-quruculuq sahəsində əldə olunanlarla kifayətlənmir, daha böyük uğurlar qazanmağa çalışırlar.

***Səməd HÜSEYNOĞLU,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***